

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 35 (24.172)

23 fevral 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev: "İraqın Kürdüstan Regionu ilə iqtisadiyyat, ticarət sahələrində əlaqələrin inkişaf etdirilməsi üçün böyük potensial var"



*Ötən həftə Cənubi Qafqazın siyasi elitasının əsas diqqəti Almaniyaya yönəlmişdi, bu ölkədə keçirilən Münxen Təhlükəsizlik Konfransı adından məlum olduğu kimi, sülhə, tərəfdaşlığa, təhlükəsizliyə önəm verən region ölkələri, o cümlədən də Azərbaycan üçün gələcək əməkdaşlıq əlaqələrinin gücləndirilməsi, bölgədə əmin-amanlığın təmini baxımından bir sıra hadisələrlə yadda qaldı.*

Politoloqların əsas müzakirə predmeti kimi, heç şübhəsiz, konfransın sədri Kristof Heusgenin moderatorluq etdiyi, Azərbaycan Prezidenti İlham Əliyev, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan, ATƏT-in Baş katibi, Münxen Təhlükəsizlik Konfransı Şurasının sədr müavini xanım Helqa Maria Şmidin iştirakı ilə keçirilən "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclası vurğulamaq lazımdır. İclasda tarixi faktlarla işğalçı Ermənistanın çirkin planlarını bir daha bütün dünyanın gözü önündə ifşa edən qalib ölkənin lideri cənab İlham Əliyevin diplomatik şillələri qarşısında başı gicəllənən Nikol Paşinyan heç bir əsası olmayan sərsəm bəyanatlar səsləndirərək növbəti dəfə özünü rüsvayçı vəziyyətə saldı. Konfransın ümumi detalları belə deməyə əsas verir ki, kiçik düşüncənin qavramaqda çətinlik çəkdiyi böyük siyasət meydanında ölkə başçısı cənab İlham Əliyev anti-Azərbaycan mövqeyindən yanaşan qüvvələri yenə oyundan kənar vəziyyətə salmağı müfəssəl şəkildə bacardı...

Ölkə Prezidenti plenar iclaslarla yanaşı, konfrans çərçivəsində bir sıra rəsmi görüşlər də keçirdi ki, onlar arasında dünya siyasət arenasında ən çox rezonans doğuranı İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə görüş idi. Görüşə görə təşəkkürünü bildirən Neçirvan Bərzani Azərbaycanla İraqın Kürdüstan Regionu arasında ortaq tarixi və mədəni əlaqələrin olduğunu, əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün böyük potensialın mövcudluğunu diqqətə çatdırdı. Bu məqamda Prezident cənab İlham Əliyevin hələ bir neçə il əvvəl, daha dəqiq desək, 2017-ci ildə Davosda İraq Kürdüstan Regional Hökumətinin başçısı Məsud Bərzani ilə görüşünü də xatırlatmaq yerinə düşər. Həmin görüşdə də Azərbaycan ilə İraq Kürdüstan Regional Hökuməti arasında energetika, ticarət, idxal-ixrac və digər istiqamətlərdə əməkdaşlıq imkanlarının araşdırılmasının mümkünlüyü qeyd edilmiş, qarşı tərəf Azərbaycan şirkətləri ilə müxtəlif layihələr üzrə əməkdaşlıqda maraqlı olduqlarını bildirmiş, əlaqələrimizin genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu vurğulamışdı. Məhz "Bu yaxınlığa rəvac verən nədir?" sualına tarixi aspektdən yanaşanda isə cavab gün kimi aydın olur: Ortaq düşmən. Bəli, tarixə nəzər salanda görürük ki, həm kürdlər, həm də azərbaycanlılar tarixin müxtəlif dönəmlərində eyni düşməndən ciddi zərbələr alıblar. 1918-ci il 31 martda, 1992-ci il 17, 26 fevral tarixlərdə azərbaycanlıları soyqırımlara və eləcə də müxtəlif dövrlərdə faciələrə, deportasiyalara məruz qoyan ermənilər eyni aqibəti kürdlərə də yaşadıblar. Tarixi vərəqləyib bir-iki fakta diqqət yetirmək kifayətdir ki, bədxah qonşumuzun kürdlərə qarşı nifrətini sezmək mümkün olsun. Belə ki, bu barədə kiçik araşdırma apardıqda Türkiyənin Van vilayətindəki vitse-konsulu mayor Vilyamsın 15 may 1896-cı il tarixli raportunda ermənilərin kürdləri qətlə yetirmələri barədə yazıldığını öyrəndik: "Çatdırmağı özümə şərəf bilirəm ki, bu vilayətdə vəziyyət heç bir cəhətdən qənaətbəxş deyil. Son həftə ərzində erməni inqilabçıları iki dəfə kürdlərin üstünə hücum etmişlər. Birincidə üç kürd öldürülmüş və ikisi yaralanmış, ikincidə iki, ola bilsin, üç kürd öldürülmüşdür. Təsdiqlənmişdir ki, hər iki halda meyitlər dəhşətli dərəcədə təhqir olunub eybəcər hala salınmışdır" (Viscount Bryce-Arnold Toynbee, The Treatment of Armenians in the Ottoman Empire 1915-16, Documents presented to Viscount Grey of Fallodon, Secretary of State for Foreign Affairs, with a preface by Viscount Bryce, London, 1916.7-22). İran generalı, səfiri Ərfəüddövlə Həsən xan Mirzə Rza xan oğlu (Həsən xan Ərfə kimi tanınır) isə yazır ki, 1914-cü il Sarıqamış məğlubiyyətindən sonra rus orduları Türkiyəni işğal edəndə Qafqaz və Türkiyə ermənilərindən təşkil olunmuş 130 könüllü dəstə irəlidə gəlirdi. Bunlardan birisinə qana susamış Andronik adlı birisi komandanlıq edirdi. Bu ermənilər 1915-1918-ci illər arasında Türkiyənin şərq vilayətlərində 600 000-dən çox kürdü qətlə yetirdilər.

Fevralın 18-də Münxendə Azərbaycan Prezidenti cənab İlham Əliyevin İraq Kürdüstan Regionunun başçısı Neçirvan Bərzani ilə görüşünün detalları isə oxşar acı tarixi həqiqəti yaşayan xalqların yaxınlığından, İraqın Kürdüstan Regionu ilə Azərbaycanın gələcək əməkdaşlıq əlaqələrinin qurulacağından xəbər verir. İraqın geosiyasi reallığına nəzər yetirəndə aydın olur ki, artıq Kürdüstan Regionu müstəqil dövlət atributlarına malikdir. Bu regionun bayrağı, gerbi, ordusu, xarici siyasəti – bir sözlə, müstəqil dövləti şərtləndirən bütün atributları, eyni zamanda qarşılıqlı əməkdaşlığın inkişafına yol açan güclü iqtisadi potensialı, zəngin yeraltı sərvəti vardır. Belə ki, İraq Kürdüstanının sübut olunmuş neft yağları 45 milyard barelldir, amma ehtiyatda olan potensial yataqları nəzərə alsaq, bu rəqəm 115 milyard barellə qədər gedib çıxır. Son illər həmin ərazidə aparılan geoloji axtarışlar nəticəsində 3 trilyon kubmetr qaz ehtiyatları da aşkar olunub. Bu da, ümumilikdə, İraqın qaz ehtiyatlarının 90 faizi deməkdir.

Bəhs olunan görüşdə əsas diqqətçəkən məsələ Azərbaycan, Türkiyə və İraqın Kürdüstan Regionu arasında üçtərəli əlaqələrin əsas müzakirə predmetinə çevrilməsi idi. Neçirvan Bərzani diqqətə çatdırdı ki, bu regionun Türkiyə ilə də çox sıx münasibətləri var və bu xüsusda birgə əməkdaşlıq layihələrinə baxıla bilər. Qeyd olunduğu kimi, Kürdüstan Azərbaycana qardaş ölkə sayılan Türkiyə ilə çox yaxşı əlaqələrə malikdir, iki tərəfin siyasi rəhbərliyi arasında yaxın münasibətlər və sıx dialoq var, mütəmadi görüşlər keçirilir. Prezident cənab İlham Əliyev də bu faktora diqqət çəkərək Azərbaycanla Türkiyə arasında qardaşlıq əlaqələrinin mövcud olduğunu, bu çərçivədə üçtərəfli əməkdaşlığı mexanizmlərinin perspektivdə nəzərdən keçirilə biləcəyini dedi.

Aradakı ticarət dövriyyəsinin 12 milyard dollar təşkil etdiyini nəzərə alsaq, iqtisadi əlaqələr baxımından Kürdüstanın Türkiyənin yaxın tərəfdaşı olduğunu əminliklə deyə bilərik. Həm bu baxımdan, həm də regionda qarışıqlıq yaratmağa çalışan Ermənistan və ona dəstək verən dövlətlərə qarşı münasibətdə də İraqın Kürdüstan Regionu ilə Azərbaycanın maraqları üst-üstə düşür. Məhz anti-Azərbaycan siyasəti yeridən qonşu İrandakı molla rejimi tərəfindən ən çox diskriminasiyaya uğrayan xalqlar sırasında azərbaycanlılar və kürdlər öndə gəlir. İranın Kürdüstanla sərhəddə tez-tez hərbi əməliyyatların keçirməsi, kürdlərin yaşadıqları əraziləri ağır silahlardan atəşə tutması, çoxsaylı insan tələfatına səbəb olan əməliyyatların reallaşdırılması da buna əyani sübutdur. Məsələyə hər iki tərəfin vətəndaşları mövqeyindən yanaşanda Münxen görüşündə Neçirvan Bərzaninin İraqın Kürdüstan Regionundan turistlərin Azərbaycana səfər etdiklərini və bu səfərlərdən çox məmnun qaldıqlarını qeyd etməsi də gələcək əməkdaşlıq əlaqələrinin qurulmasının təkcə dövlətin deyil, eyni zamanda yerli kürd əhalisinin də marağında olduğunu sezmək çətin deyil.

Beləliklə, fevralın 18-də Münxen görüşü yüksək səviyyədə keçməsi, gələcək əməkdaşlıq əlaqələrinin müzakirəsi ilə yadda qaldı. Prezident cənab İlham Əliyev Neçirvan Bərzanini Azərbaycana səfərə dəvət etməklə əvvəllər İraq Kürdüstanını Azərbaycana qarşı çıxarmağa, millətlərarası konflikt yaratmağa cəhd edən Ermənistan və düşmən mövqedə dayanan bir sıra qüvvələrin məkrli planını fiyaskoya uğratdı. İraqın Kürdüstan Regionu ilə iqtisadiyyat, ticarət sahələrində əlaqələrin inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu diqqətə çatdıran dövlətimizin başçısı biznes dairələri arasında birbaşa əlaqələrin qurulması, həmçinin biznes şurası formasında müxtəlif təsisatların yaradılması məsələlərini nəzərdən keçirmək olar deməklə, gələcək qarşılıqlı əlaqələrin ilkin siyasi konturlarını müəyyənləşdirdi.

**Nail ƏSGƏROV**

## Orta İxtisas Polis Məktəbində tədbir keçirilib



*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində ilkin hazırlıq kursunu bitirmiş gənc əməkdaşların andiçmə mərasimi keçirilmişdir. Əvvəlcə Ulu Öndərin, Vətən müharibəsi şəhidlərinin və xidmət zamanı həyatını itirmiş polis işçilərinin əziz xatirəsi ehtiramla yad edilmiş və Dövlət Himni səsləndirilmişdir.*

Andiçmə mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, polis polkovniki Süleyman Neymətov gənc polislərə Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazovun salamını və təbrikini çatdırmış, Azərbaycan Respublikasının Prezidenti, silahlı qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin daxili işlər orqanlarına göstərdiyi yüksək diqqət və qayğıdan danışmışdır.

Sonra Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Yusif Həsənov və Orta İxtisas Polis Məktəbinin rəisi, polis polkovniki Kamil Məmmədəliyev çıxış etmişlər.

Gənc əməkdaş, şəhid yoldaşı Gülnar Rzayeva yaradılan yüksək şəraitə görə dövlət başçısına və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəhbərliyinə kurs yoldaşları adından minnətdarlıq etmişdir.

Sonra gənc əməkdaşlar polis andını qəbul etmişlər. Andiçmə mərasimi şəxsi heyətin təntənəli keçidi ilə başa çatmışdır. Tədbirdən sonra nazir dinləyici və kursantlar üçün yaradılan şəraitlə yaxından tanış olmuş, həmin şəraitdən daha səmərəli istifadə olunması üçün tövsiyə və tapşırıqlarını vermişdir.

**Xəbərlər şöbəsi**

*Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev, onun birinci müavini Nigar Bayramova, TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov və Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin baş direktoru Samiq Sadıxov Naxçıvan Dövlət Universitetində oldular. Tanışlıq prosesində qonaqlara ali təhsil müəssisəsinin Tibb fakültəsi haqqında məlumat verilib.*

## Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və TƏBİB-in nümayəndə heyəti Naxçıvan Dövlət Universitetində



Bildirilib ki, 20 ildən artıq təcrübəsi olan fakültənin fəaliyyətinə mütəmadi olaraq dövlət dəstəyi göstərilir. Bu gün Tibb fakültəsi üçün ayrıca bina və xəstəxananın mövcudluğu bu sahədə peşəkar kadr hazırlığına öz töhfələrini verməkdədir. Eyni zamanda tibbi kadrların hazırlığı üçün xarici universitetlərlə geniş əlaqələr, təcrübə mübadilələri, universitetin beynəlxalq layihələrdə iştirakı qonaqların diqqətinə çatdırılıb. Qeyd edilib ki, müasir avadanlıqlarla zəngin laboratoriyaların qurulması fakültənin tədris imkanlarını daha da artırır. Vurğulanıb ki, Tibb fakültəsinin məzunları nəinki Naxçıvanda, hətta ölkəmizin hüdudlarından kənarda – Amerika Birləşmiş Ştatları, Braziliya, İspaniya, Almaniya, İtaliya, Türkiyə və digər ölkələrdə təhsillərini davam etdirərək muxtar respublika səhiyyəsinin inkişafında mühüm rol oynayırlar.

Qonaqlar fakültədə fəaliyyət göstərən kitabxana, kompüter otağı, histologiya, anatomiya, fizioterapiya, patologiya, stomatoloji simulyasiya, əczaçılıq simulyasiya kabinələri, kimya, fiziologiya və stomatoloji texniki laboratoriyaları ilə tanış oldular.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Xocalı faciəsinin 31-ci ildönümünə həsr olunmuş sərgi



Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Xocalı soyqırımının 31-ci ildönümünə həsr edilmiş rəsm sərgisi açılıb. Açılış tədbirində əvvəlcə Xocalı faciəsi qurbanlarının, 44 günlük Vətən müharibəsində şəhid olanların və qardaş Türkiyədə baş verən təbii fəlakət nəticəsində həyatını itirənlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, Xocalı soyqırımı insanlığa qarşı törədilmiş ən qəddar cinayətdir. Bu faciə bədii ədəbiyyat, kinofilmlər, musiqi və rəsm əsərlərində əks olunaraq gələcək nəsillərə, eyni zamanda dünya ictimaiyyətinə çatdırılır.

Qeyd edilib ki, 44 günlük şanlı Vətən müharibəsində qazanılan Tarixi Zəfər 30 illik ədalətin bərqərar olunması ilə nəticələndi, həmçinin Xocalı soyqırımı qurbanlarının, torpaqlarımız uğrunda şəhid olan Vətən oğullarının qisası alındı.

Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu Asip Kaya çıxış edərək diqqətə çatdırıb ki, Türkiyədə baş verən dəhşətli zəlzələnin ilk dəqiqələrindən etibarən Azərbaycan xalqının ürəyi türk soydaşları ilə birgə döyünürdü. Azərbaycanın hər bir bölgəsindən, eləcə də Naxçıvandan vətəndaşlar zəlzələdən zərərçəkmiş türk qardaşlarına həm maddi, həm də mənəvi yardımlarını əsirgəmədilər. Burada da Azərbaycan həmişə Türkiyənin yanında olduğunu sübut etdi.

Vurğulanıb ki, Azərbaycan xalqının başına tarixin müxtəlif vaxtlarında faciələr gətirilib. Xocalı soyqırımı da belə faciələrdən biri kimi yaddaşlara həkk olunub. Bu gün yalnız Azərbaycanda deyil, Türkiyədə də bu faciə qurbanlarının xatirələri yaşadılır və təbliğ olunur.

Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılov, Azərbaycan Rəssamlar İttifaqının üzvü Mahir Xəlilov çıxış edərək bildiriblər ki, xalqımızın başına gətirilən dəhşətli faciələr heç vaxt unudulmayacaq, soyqırımı qurbanlarının xatirələri bundan sonra da yaşadılacaq.

Qeyd edək ki, sərgidə 30 rəssamın 31 əsəri nümayiş etdirilir. Sərgi 1 həftə davam edəcək.

**Aytac CƏFƏRLİ**

# Soyqırımı tariximiz – faciələrlə dolu qan yaddaşımız

*Azərbaycan xalqının taleyinə, tarixinə ən qanlı hadisələr, faciələr, misligörünməmiş soyqırımlar yazılıb. 31 mart soyqırımı, 20 Yanvar, Xocalı faciələri, Qaradağlı soyqırımı və digərləri erməni faşizminin gerçək üzünü göstərən fakt, Türk dünyası və bəşəriyyət əleyhinə törədilmiş cinayətlərdir. Soyqırımı tariximiz haqqında Naxçıvan Dövlət Universitetinin Ümumi tarix kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru* ***Abdulla Mustafayev****lə həmsöhbət olduq.*

Abdulla müəllim bildirdi ki, Azərbaycan xalqının qan yaddaşına daxil olmuş faciələrin hamısı öz kökü etibarilə vaxtilə Osmanlı imperiyasını bölüşdürmək məqsədilə ortaya atılmış uydurma “erməni soyqırımı” ilə birbaşa bağlıdır. Belə ki, XIX əsrin əvvəllərindən çar Rusiyasının köməkliyi və himayəsi altında Azərbaycan torpaqlarına yerləşdirilən ermənilər Osmanlı torpaqlarında özlərinin dövlətlərini yaratmağın mümkünsüzlüyünü yəqin etdikdən sonra Azərbaycan torpaqlarında bu niyyətlərini reallaşdırmağa çalışmış və təəssüflər olsun ki, buna nail ola bilmişlər. Ermənilər bu xülyalarını həyata keçirmək məqsədilə XX əsrin əvvəllərindən başlayaraq əsrin sonlarına qədər müxtəlif mərhələlərdə xalqımıza qarşı qanlı qırğınlar həyata keçirmişlər. İstər 1905-1907-ci illərdə, istər 1918-1920-ci illərdə, istərsə də 1988-1993-cü illərdə xalqımıza qarşı soyqırımı siyasəti gerçəkləşmiş, XX əsrin 20-30-cu illərində repressiya siyasətinin ən ağır forması Azərbaycanda həyata keçirilmiş, 1948-1953-cü illərdə SSRİ səviyyəsində 150 min nəfərdən artıq soydaşımız indi Ermənistan adlandırılan Qərbi Azərbaycandakı öz tarixi-etnik torpaqlarından deportasiyaya məruz qalmışdı. Tam əminliklə və qətiyyətlə demək olar ki, keçmiş sovetlər birliyinə daxil olan müttəfiq respublikaların heç biri Azərbaycan xalqı qədər soyqırımına, deportasiyaya, repressiyaya məruz qalmamış, torpaqları zəbt edilərək başqa bir müttəfiq respublikaya verilməmişdir.



Zəngəzurun işğalının Naxçıvanın taleyində rolu barədə danışan Abdulla müəllim deyir: – Aprel çevrilişindən sonra Zəngəzurun işğalına nail olan ermənilər az sonra SSRİ-nin yaranması ilə sovet hökumətinin himayəsi altında heç bir əsas olmadan Azərbaycan ərazisində Dağlıq Qarabağ Muxtar Vilayətinin təşkilinə nail oldular. Baxmayaraq ki, Ermənistan ərazisində azərbaycanlılar çoxluq təşkil edirdilər, onlar bu cür muxtariyyətə malik deyildilər. Bütün bunlardan şirnikləşən ermənilər hissə-hissə torpaqlarımızı ələ keçirdilər. Bunun bariz nümunələrindən biri də sovet hökumətinin beynəlxalq Qars müqaviləsinin şərtlərini heçə sayaraq Naxçıvanın doqquz kəndinin 1928-ci ildə Ermənistana verilməsi idi. Bütün bunlar onun göstəricisi idi ki, sovet hökuməti beynəlxalq sülh müqavilələrinin şərtlərinə və müttəfiqlik haqqında SSRİ qanunlarına hörmət göstərməyərək Azərbaycan torpaqları hesabına Ermənistanın ərazisini genişləndirməyə çalışırdı. Nəhayət, XX əsrin sonlarında sovetlər birliyinin dağılması ilə yaranmış şəraitdən istifadə edən ermənilər növbəti dəfə Azərbaycana qarşı ərazi iddiaları qaldırmış, bu dəfə Dağlıq Qarabağ və Naxçıvanı Ermənistana birləşdirmək məqsədilə fəaliyyətə başlamışlar. Ermənistan ərazisində yaşayan 250 min nəfərdən artıq azərbaycanlının vəhşicəsinə qovulması, 216 azərbaycanlının öldürülməsi ilə müşayiət olunan son mərhələ qısa zamanda başa çatdıqdan sonra ermənilər Dağlıq Qarabağ və ətraf rayonların işğalı prosesini gerçəkləşdirməyə başladılar. 1988-ci ilin dekabr ayında Ermənistanda baş verən zəlzələdən sonra dünyanın müxtəlif ölkələrindən, o cümlədən Rusiyadan ən müasir silahlar əldə edən ermənilər silahlı dəstələr yaradaraq azərbaycanlıların öldürülməsinə, doğma yurd-yuvalarından qovulmasına başladılar. Təəssüflər olsun ki, həmin dövrdə Azərbaycan daxilində olan ixtilaflar da ermənilərin bu niyyətlərini həyata keçirmələrinə imkan və şərait yaratdı.

Abdulla müəllim ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş ən qanlı cinayətlərdən biri, əsrin faciəsi hesab olunan Xocalı faciəsi haqqında danışaraq qeyd etdi ki, bu faciə azərbaycanlı əhaliyə qarşı tətbiq edilmiş faciələrin ən dəhşətlisi idi. XX əsrin sonlarında “dünyanın demokratik dövlətləri”nin gözləri qarşısında xalqımıza qarşı bəşəri cinayət törədildi. Lakin Xocalı faciəsinə qədər də xalqımız bir sıra dəhşətli faciələr yaşamalı olmuşdur.

XX əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan daxilində yaranmış hakimiyyət böhranı getdikcə dərinləşməyə başlamış, hakimiyyətdə olanlar ölkəni idarə etmək qabiliyyətini tamamilə itirmişdi. Yaranmış belə bir vəziyyətdən bir tərəfdən müxalifət istifadə edərək hakimiyyəti ələ keçirməyə çalışır, digər tərəfdən isə Rusiyanın bölgədə olan hərbi hissələrinin köməyindən istifadə edən erməni quldur dəstələri ərazilərimizi işğal edir, əhalini öldürür, evlərindən qovurdular. Belə ki, erməni quldurları yanvarın 15-də Kərkicahanı, fevralın 10-da Malıbəyli və Quşçular kəndlərini ələ keçirərək Xocalıya və Şuşaya gedən yolu nəzarət altına almağa çalışırdılar. Şuşa şəhərini mühasirə vəziyyətindən xilas etmək üçün ordumuzun həyata keçirdiyi və 33 nəfərin ölümü, 34 nəfərin itkin düşməsi, 36 nəfərin yaralanması ilə nəticələnmiş Daşaltı əməliyyatı uğursuzluqla nəticələnmişdi. Bundan sonra ermənilər xalqımızın tarixinə qanlı hərflərlə yazılmış Qaradağlı faciəsini həyata keçirmişdilər. Beləliklə, Xocavənd, Malıbəyli, Kərkicahan kəndlərinin işğalından sonra növbəti hədəf Qaradağlı kəndini ələ keçirmək idi. Getdikcə kənddə vəziyyətin pisləşməsi, istər sovet rəhbərliyinin, istərsə də Azərbaycan rəhbərliyinin hadisələrə biganə qalması hələ neçə-neçə faciələrimizin gözlənildiyindən xəbər verirdi.

Müsahibim vurğuladı ki, ermənilərin torpaqlarımıza qarşı iddialar qaldırması ilə eyni vaxtda digər kəndlərimiz kimi, Qaradağlı kəndinin də faciəli günlərinin başlanğıcı qoyulub: – Hələ 1990-cı il noyabr ayının 24-də kəndin üç sakini Xocavənd-Xankəndi yolunun 6 kilometrliyində erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirilmiş, 1991-ci il yanvarın 9-da isə üç nəfər sakin ermənilərin açdığı atəş nəticəsində öldürülmüş, martın 8-də daha 2 sakin kənd yaxınlığında düşmən tərəfindən qətlə yetirilmiş, iyunun 28-də 6 nəfər yenə də diri-diri yandırılmış, sentyabrın 8-də kəndə məxsus avtobusun atəşə tutulması nəticəsində avtobusda olan 40 nəfərdən 8-i düşmən gülləsinə tuş gəlmişdir. Bunların sayını artırmaq olar. Erməni quldur dəstələri fevral ayının 14-də keçmiş SSRİ silahlı qüvvələrinin Xankəndi şəhərində yerləşən, fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş verəcək əsrin faciəsində iştirak edəcək 366-cı motoatıcı alayın hərbi qüvvələrinin və bu hərbi hissəyə məxsus olan texnikanın köməyi ilə Xocavənd rayonunun Qaradağlı kəndi üzərinə hücuma keçdilər. Öz adını Cənubi Azərbaycan ərazisində olan Qaradağ mahalının adından götürən, mənşəcə qızılbaşların Qaradağlı tayfasının burada məskunlaşması nəticəsində yaranmış kəndin əhalisi mənfur düşmənə qarşı çox mərdliklə müqavimət göstərmiş, lakin qeyri-bərabər döyüş düşmənin fevral ayının 17-də kəndi ələ keçirməsi ilə nəticələnmişdir. Xocavənd rayonunun ən qədim yaşayış məskənlərindən biri olan Qaradağlı kəndi ermənilər tərəfindən mühasirəyə alınmasına baxmayaraq, dörd il ərzində mənfur düşmənə qarşı qəhrəmancasına mübarizə aparmış, düşmənə qarşı qeyri-bərabər döyüşlərdə şəhidlər vermişdir. Kənd uğrunda gedən qanlı döyüşlərdə 77 nəfər kənd sakini qəhrəmanlıqla vuruşaraq şəhidlik zirvəsinə yüksəlmişdir. Kəndin işğal edilməsi ilə 118 nəfəri əsir alan düşmən onlardan 101 nəfərini vəhşicəsinə qətlə yetirmişdir. Ələ keçirilən əsirlərin əksəriyyəti canlı şəkildə silos quyularında basdırılmışdır. 21 nəfər ahıl və qoca, 10 qadın, 8 məktəbli erməni vəhşiliyinin qurbanı olmuşdur. Kəndin “Bəylik” adlanan yerində 23 kənd sakini güllələnərək öldürülmüşdür. Ermənilərin kəndi işğal etmələri nəticəsində 200 yaşayış evi, 1 mədəniyyət evi, 320 nəfərlik orta məktəb, 26 çarpayılıq xəstəxana və 800-dən çox kənd sakini öz doğma torpaqlarında 30 ilə yaxın köçkünlük həyatı yaşamağa məcbur olmuşdur. Xocalı və digər faciələrimizdə olduğu kimi, Qaradağlı faciəsində də insanlar xüsusi qəddarlıqla öldürülmüşdü. Beləliklə, 1992-ci il fevralın 17-də ələ keçirilən Qaradağlı kəndi digər yaşayış məntəqələrimiz kimi, ermənilər tərəfindən yandırılaraq yer üzündən silinmişdir. Qaradağlı faciəsindən az sonra insanlıq tarixində oxşarı olmayan və tarixə “əsrin faciəsi” kimi düşmüş Xocalı faciəsi baş vermişdir.



Abdulla müəllim qeyd etdi ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra başımıza gətirilən faciələrin araşdırılması istiqamətində mühüm addımlar atılmış, digər faciələrimiz kimi, Qaradağlı faciəsinin də beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə bu barədə film çəkilmiş və bir sıra tədbirlər həyata keçirilmişdir. 2008-ci il oktyabr ayının 8-də Xocavənd rayonundan olan məcburi köçkünlərin məskunlaşması məqsədilə salınmış yeni qəsəbənin açılışında çıxış edən Prezident cənab İlham Əliyev Qaradağlı faciəsinin tanıdılması istiqamətində verdiyi tapşırıqdan sonra bu sahədə fəaliyyət xüsusilə artırılmış, qısa zamanda “Soyqırımı: Qaradağlı”, “Soyqırımı Qaradağlı: davam edir”, “Qaradağlı Mübarizə” filmləri çəkilərək Azərbaycan, ingilis və rus dillərində ictimaiyyətə təqdim olunmuş, “Qaradağlı soyqırımı: Şahidlərin dili ilə” kitabı nəşr olunmuşdur. Hər il Qaradağlı kəndində baş verən faciənin və əsrin faciəsi – Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla anılır. Müstəqil Azərbaycanın Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış Şanlı Zəfər həm də xalqımızın tarixboyu məruz qaldığı soyqırımı qurbanlarının qisasının döyüş meydanında alınması ilə milli tariximizə əbədi həkk olundu.

*Bəli, 44 günlük şanlı Vətən müharibəsində qüdrətli ordumuz düşmən üzərində Qələbə çaldı, tarixi ədaləti bərpa etdi, Xocalı soyqırımı qurbanlarının, eləcə də torpaq uğrunda canını fəda edən bütün Vətən övladlarının qisası alındı, ərazi bütövlüyümüz bərpa olundu. Ölkə başçısı Prezident cənab İlham Əliyev 2020-ci ildə Ağdama səfəri zamanı demişdi:* ***“Ermənistan ordusunu məhv etmişik. Ermənistan ordusu demək olar ki, yoxdur. Hərbi cinayətkarları məhv etmişik, onların törtöküntülərini məhv etmişik. Biz Koçaryan, Sarkisyan ordusunu məhv etmişik, onları qabağımızda diz çökdürmüşük… Hərbi cinayətkarlar, Xocalı qatilləri, sizi məhv etmişik. Azərbaycan əsgəri, Azərbaycan zabiti sizi məhv edib. Əcəb də eləyib!”*** *Bu gün “Qarabağda erməni hərəkatının 35 illiyi” ilə bağlı çıxışlar edən Ermənistan hökuməti və ermənilər unutmasınlar ki, bu hərəkat yalnız qan tökülməsinə, dağıntılara səbəb olub, lakin qarşısına qoyduğu hədəfə heç vaxt çata bilməyib. Ermənistan törətdiyi hər bir müharibə cinayətinə görə cavab verməyə gec-tez məhkum olacaq.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## O çiçəklər bir daha solmayacaq...

### Xocalı faciəsinin qisası döyüş meydanında alındı

*Ermənistanın Azərbaycana qarşı əsassız torpaq iddiaları zəminində dinc əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlilərindən biri Xocalı soyqırımıdır. Xocalı həm də bizim harayımız, ədalətli mübarizəmizin haqq səsidir.*



1992-ci il fevralın 25-dən 26-na keçən gecə işğalçı erməni silahlı qüvvələri və keçmiş sovet imperiyasının 366-cı motoatıcı alayı bütün beynəlxalq hüquq normalarını pozaraq, əvvəlcədən mühasirəyə aldıqları Xocalı şəhərinin dinc əhalisinin üzərinə ağır hərbi texnika yeridərək, onlara misligörünməmiş qəddarlıqla divan tutub, şəhəri barbarcasına yerləyeksan edərək soyqırımı törətdilər. Bu vəhşilik yalnız Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş dəhşətli cinayət əməli idi. Ümummilli Lider Heydər Əliyev Xocalı soyqırımına münasibət bildirərək demişdir: ***“Bütövlükdə, Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir”.***

Elə həmin ildən 26 fevral tarixi təqvimimizdə bu faciənin ağrı-acısını özündə əks etdirən günə çevrildi. Xocalı faciəsinin həm də maraqlı bir simvolu var: badam çiçəyi. Adətən, fevralın sonu çiçəkləyən badam ağacı öz çiçəkləri ilə yazın gəlişini xəbər verir. Həmin il də badamlar çiçəkləmişdi və insanlara, təbiətə yazın gəlişini xəbər verəcəkdi. Amma olmadı, fevralın 25-dən 26-na keçən gecə baş vermiş o müdhiş faciədə bu çiçəklər də soldu. O gecə yüzlərlə soydaşımız yazın gəlişinə şahid ola bilmədiklərinə görə, çiçəklər də öz ləçəyindən qoparaq yaşananlara öz “etirazlarını bildirdilər”. Beləliklə, ləçəyi qopmuş badam çiçəkləri “Xocalı faciəsi”nin şahidinə, həm də simvoluna çevrildilər. O gecə amansızlıqla qətlə yetirilən xocalılılartək, çiçəklərin ləçəkləri də yerə səpildi. Sanki xocalılılarla birgə eyni taleyi bölüşdülər. Axı badam çiçəyindən bir ləçək qopsa, bar verməz. Necə ki Xocalıda qəddar erməni silahlı birləşmələri məsum insanları işgəncəyə məruz qoyaraq qətlə yetirdilər. O insanların da arzuları çin olmadan ürəklərində qaldı. Əslində, mənfur düşmən zaman-zaman bu cür vəhşilikləri törətməklə xalqımızın gözündə bir xof, mübarizə əzmimizi qırmaq, tarixi dədə-baba torpaqlarımızın bir qisminin itirilməsi hissinin taleyi ilə barışmağa məcbur etmək istəyirdilər. Bu istəyin arxasında isə arzusunda olduqları bir plan, “böyük Ermənistan” yaratmaq xülyası dayanırdı. Lakin hiyləgər düşmən məqsədinə çata bilmədi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində qəhrəman ordumuz düşmənə layiqli cavabı verdi, eyni zamanda Xocalı qatillərindən törədilmiş soyqırımının qisasını aldı. Ali Baş Komandan cənab İlham Əliyev müsahibələrinin birində belə demişdi: ***“Təsadüfi deyil ki, Ermənistan rəhbərləri – hərbi cinayətkarlar xarici jurnalistlərə müsahibə verərkən, bu barədə sualı cavablandırarkən qürur hissi ilə qeyd edirdilər ki, bəli, Ermənistan bu hərbi cinayəti dinc əhaliyə qarşı törədib. Ona görə ki, Azərbaycan xalqı görsün, Ermənistan rəhbərliyi dinc əhaliyə də əl qaldıra bilər. Biz isə Xocalı qurbanlarının intiqamını döyüş meydanında aldıq. 44 gün davam edən İkinci Qarabağ müharibəsində Ermənistan ordusunu darmadağın edərək, öz tarixi torpaqlarımızı işğalçılardan azad edərək, o cümlədən Xocalı qurbanlarının da qanını aldıq. Azərbaycan güclü dövlət kimi heç vaxt imkan verməz ki, bir daha erməni faşizmi baş qaldırsın, halbuki belə meyillər görünməkdədir. Bu gün Azərbaycan öz fəaliyyəti ilə bölgənin gələcək inkişafına töhfə verir, bölgədə sabitliyin tam bərqərar olması üçün əməli addımlar atır”.***

Xocalıda baş vermiş soyqırımından 31 il ötür. Vətən müharibəsindəki qalibiyyətimiz, xalq və ordu birliyimiz, qətiyyətimiz onu göstərdi ki, xalqımız bir daha bu ağır günləri yaşamayacaq. Artıq badam çiçəkləri də ləçəklərindən vaxtsız ayrılmayacaq, hər yazın gəlişini bizə xəbər verəcəklər.

**Aidə İBRAHİMOVA**
***Naxçıvan Dövlət Universitetinin II kurs tələbəsi***

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin rəsmi internet səhifəsi *“GOV.AZ”* zonasına köçürülüb




Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən Naxçıvan Muxtar Respublikasında dövlət qurumlarının internet səhifələrinin “GOV.AZ” zonasında qeydiyyatdan keçirilməsi və təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir. Həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin *(nsupremecourt.gov.az)* informasiya resursu AzStateNet şəbəkəsinə köçürülüb.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin rəsmi internet saytı Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mühəndis-proqramçıları tərəfindən müasir proqramlaşdırma dillərindən istifadə edilərək hazırlanıb.

Yenilənmiş internet səhifəsinin optimizasiyası (SEO-Search Engine Optimization) axtarış sistemlərinə uyğunlaşdırılması, “Google” axtarış sistemində qeydiyyatdan keçirilməsi və axtarış sistemlərində ön sıralarda tapılması üçün nazirliyin mühəndisləri tərəfindən zəruri texniki tədbirlər həyata keçirilib. Həmçinin saytın domen ünvanı da müvafiq qaydada yenilənməklə domenə bağlı e-poçt adresi ilə təmin ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Müsabiqənin muxtar respublika mərhələsi yekunlaşıb



Naxçıvan Muxtar Respublikası Təhsil və Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə “Milli musiqi və rəqs” müsabiqəsi keçirilib. Müsabiqənin təşkilində məqsəd çoxəsrlik inkişaf tarixinə malik Azərbaycanın zəngin musiqi sənəti və musiqi mədəniyyətinin məktəblilər arasında təbliği, şagirdlərin milli ruhda tərbiyə olunması, xüsusi istedada malik olan gənclərin aşkar edilməsi, onların qabiliyyətlərinin inkişafı, milli adət və ənənələrə və Azərbaycançılıq ideyalarına sadiq olan şagirdlərin yetişdirilməsi, şagirdlər arasında musiqi zövqünün formalaşdırılması, Azərbaycan milli musiqi və rəqs nümunələrinin yaşadılmasıdır.

Qeyd edək ki, müsabiqənin üç mərhələdə keçirilməsi nəzərdə tutulmuşdur ki, 1-ci mərhələ məktəbdaxili seçim turu və 2-ci şəhər (rayon) mərhələsi yekunlaşdırılıb. Dünən isə Naxçıvan şəhərində muxtar respublika mərhələsi keçirilib.

Müsabiqədə muxtar respublikanın ümumtəhsil məktəblərindən, Təhsil Nazirliyinə birbaşa tabe məktəblərdən və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzindən, ümumilikdə, 150-dən artıq şagird iştirak edib. Çalğı alətləri, rəqs və ifa nominasiyaları üzrə keçirilən müsabiqədə şagirdlər “Tənzərə”, “Söylən” yallıları, “Sarı gəlin”, “Uzundərə”, “Cəngi”, “Tərəkəmə”, “Arşın mal alan” rəqsləri, “Qarabağ”, “Xudayar təsnifi”, “Dağlarda duman gözəldir” və digər milli musiqi və rəqs nömrələri ilə çıxış ediblər.

Sonda şagirdlər münsiflər heyəti tərəfindən səhnə uyğunluğu və səhnə mədəniyyəti, jest və və mimikalardan istifadə bacarığı, mahnı və rəqslərin düzgün seçilməsi, aydın intonasiya və tələffüzün düzgün qurulması nəzərə alınaraq çalğı alətləri, rəqs və ifa nominasiyaları üzrə qiymətləndirilib.

Qeyd edək ki, I, II və III yerlərin qalibləri müsabiqənin yekun tədbirində mükafatlandırılacaq.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Maarifləndirici tədbir keçirilib

*Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Ədliyyə Nazirliyi və “Naxçıvan” Universiteti ilə birgə ali təhsil ocağında “Gənc ailələrin sağlam olması gələcək nəsillərin sağlam olması deməkdir” mövzusunda tədbir keçirilib.*



Tədbiri giriş sözü ilə açan universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru, dosent Nurlana Əliyeva qonaqları salamlayıb, tədbirin mövzusu və mahiyyəti haqqında məlumat verib.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Aparatının rəhbəri Eltun Həziyev “Ailə dəyərlərimiz milli dəyərlərimizin əsasıdır” mövzusunda çıxış edərək muxtar respublikada ailələrə və xüsusilə də gənc ailələrə göstərilən dövlət qayğısından danışıb.

Sonra Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin Ümumi təbabət klinik fənlər kafedrasının müdiri, həkim-ginekoloq, dosent Gültəkin Əliyeva “Nikahdan öncə gənclərin tibbi müayinələrdən keçməsi ailələrin sağlam olmasının əsas şərtlərindəndir” mövzusunda çıxış edib, vizual vəsaitlərdən istifadə etməklə gənc ailələrin və dünyaya gələcək körpələrin sağlamlıqları üçün preventiv tədbirlər haqqında ətraflı məlumat verib.

“Nikahın qeydə alınması” mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Hüquqi şəxslər və vətəndaşlıq vəziyyəti bölməsinin rəisi Həbibə Əliyeva müvafiq sahə ilə bağlı sualları cavablandırıb.

Sonda mövzu ilə bağlı broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Cəlil Məmmədquluzadə anadan olmasının 154-cü ildönümündə yad edilib

*Dünən Cəlil Məmmədquluzadənin ev-muzeyində böyük demokrat yazıçının anadan olmasının 154-cü ildönümünə həsr olunmuş tədbir keçirilib.*

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini Həsən Kərimov bildirib ki, Cəlil Məmmədquluzadə Vətən, millət və dil məsələlərini yaradıcılığının əsas sütunlarına çevirib, dünya ədəbi nümunələrinə bərabər tutulan, milli kimlik dərsliyi sayılan qiymətli əsərlər yaradıb.



Qeyd olunub ki, ədibin şəxsiyyətinə və yaradıcılığına layiqli qiymət Ulu Öndər Heydər Əliyev tərəfindən verilib. Ümummilli Liderimiz ***“ədəbiyyatımızın, mədəniyyətimizin klassiki”*** adlandırdığı Mirzə Cəlilin əsərləri ilə bağlı həmişə ən yüksək fikirlər səsləndirib. Ulu Öndərin göstərişi ilə 1974-cü ildə Naxçıvan şəhərində yazıçının heykəli ucaldılıb, ədibin bir zamanlar dərs dediyi Nehrəm qəsəbəsində, Şərur rayonunun Cəlilkəndində xatirə muzeyləri, 1994-cü ildə Bakıda, 1999-cu ildə Naxçıvanda ev-muzeyləri yaradılıb.

Bu gün də Cəlil Məmmədquluzadə şəxsiyyətinə və zəngin irsinə yüksək dəyər verildiyini vurğulayan Həsən Kərimov diqqətə çatdırıb ki, ədibin yubileyləri dövlət səviyyəsində keçirilib, əsərləri dörd cilddə nəşr olunub, görkəmli dramaturqun adı Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilib.

AMEA Naxçıvan Bölməsinin əməkdaşları, filologiya üzrə fəlsəfə doktorları, dosentlər Ramiz Qasımov və Aygün Orucova çıxışlarında böyük ədibin ana dilimizin saflığı, təmizliyi uğrunda apardığı mübarizədən, milli məfkurəni yaşatmaq amalından bəhs ediblər. Vurğulanıb ki, Mirzə Cəlilin Azərbaycançılığa, milli birliyə, həmrəyliyə səsləyən idealları bu gün də öz aktuallığını qoruyub saxlayır. Çıxışlarda ədibin redaktorluğu ilə işıq üzü görən “Molla Nəsrədin” jurnalının ictimai fikir tariximizdəki əhəmiyyətindən bəhs olunub. Vurğulanıb ki, xəlqilik, milli dilimizə, folklorumuza, klassik ədəbiyyatımıza bağlılıq, azadlıq, müstəqillik ideyaları jurnalın hər nömrəsində öz əksini tapıbdır.

Sonra “Cəlil Məmmədquluzadə – 154” başlıqlı sərgiyə baxış olub, tədbir bədii hissə ilə davam edib.

***

Cəlil Məmmədquluzadənin ev-muzeyində keçilən interaktiv dərs muzeyin bələdçisi Firəngiz Cəfərova tərəfindən aparılıb. Muxtar respublikada fəaliyyət göstərən 200-dən artıq ümumtəhsil müəssisəsi tərəfindən izlənilən dərsdə böyük dramaturqun həyat və yaradıcılığının müxtəlif məqamları, muzeydə sərgilənən eksponatlar haqqında ətraflı məlumat verilib.



Görkəmli ədibin həyat və fəaliyyəti haqqında məlumat verilərək bildirilib ki, Cəlil Məmmədquluzadə Azərbaycan ədəbiyyatına tənqidi realist ədəbi cərəyanının bayraqdarı, ilk mənzum və alleqorik dram əsərinin müəllifi, ictimai satiranın yaradıcısı, “Molla Nəsrəddin” jurnalının naşiri və mollanəsrəddinçilərin ağsaqqalı kimi daxil olub.

Dərsdə şagirdlərin diqqətinə çatdırılıb ki, Cəlil Məmmədquluzadənin ev-muzeyi Ümummilli Lider Heydər Əliyevin “Azərbaycanın görkəmli dramaturqu və nasiri Cəlil Məmmədquluzadənin xatirəsini əbədiləşdirmək məqsədilə Naxçıvan şəhərində ev-muzeyinin yaradılması” haqqında 1998-ci il 19 iyun tarixdə imzaladığı Sərəncamla yaradılıb, 1998-ci il 31 dekabrda fəaliyyətə başlayıb. Muzeyin 1999-cu il oktyabrın 13-də Ulu Öndərin iştirakı ilə açılış mərasimi keçirilib. 231 eksponatla fəaliyyətə başlayan muzeyin fondunda hazırda 2 min 300-dən çox eksponat var. Onlardan 300-ü ekspozisiya zallarında nümayiş olunur.

***

Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyində təşkil olunan tədbirdə muzeyin direktoru Aləmzər İbrahimova Cəlil Məmmədquluzadə yaradıcılığında qadın azadlığından danışıb. Bildirilib ki, qadın azadlığını milli tərəqqinin əlamətlərindən biri hesab edən ustad Mirzə Cəlil qızların təhsilə cəlb olunması, oxuması, dini mövhumatın buxovundan qurtarması uğrunda ciddi mübarizə aparırdı.



Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev, pedaqoji elmlər doktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Kamal Camalov “kiçik hekayənin böyük ustadı” adlandırılan Mirzə Cəlilin hekayələrində qələmə aldığı mətləblərdən, dil, üslub xüsusiyyətlərindən, pedaqoji görüşlərindən danışıblar.

Tədbirin sonunda Cəlil Məmmədquluzadəyə həsr olunmuş guşəyə baxış keçirilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Qərbi Azərbaycan dedikdə yadıma ilk düşən uzun illər qonşumuz olan Gülüzar xala oldu. Onu "qaçqın" kimi tanıyırdıq. "Qaçqın" sözünün nə anlam daşıdığını bilmirdim. Hətta bir dəfə nənəmdən niyə Gülüzar xalaya "qaçqın" deyildiyini soruşdum. Nənəmin cavabı o oldu ki, bala, onlar İrəvan bölgəsində yaşayıblar. Ata-baba yurdlarından ermənilər tərəfindən didərgin salınıblar. Camaat da o zamandan onu belə çağırır. Düşünürəm ki, 34-35 il öncə yurdlarından didərgin düşsə də, bu ad Gülüzar xala və ailəsinə hər zaman haradan gəldiklərini unutmağa imkan verməz. Elə bu düşüncə ilə üz tuturam əvvəllər yaşadığım, uşaqlığımı keçirdiyim məhləmizə. Bu dəfə buraya gəlişim qonşu kimi deyil, bir jurnalist kimi Gülüzar xalanı görmək, onunla keçmişdən, olub keçənlərdən geniş söhbət etməkdir.*

*Tarixi Azərbaycan torpaqları*

# Qədim yurd yerimiz – *Qərbi Azərbaycan*



Culfa şəhərinin Məmməd Səid Ordubadi küçəsində yerləşən ikimərtəbəli binanın ikinci girişinin birinci mərtəbəsində yaşayan Gülüzar xalanın mənzilinin qapısını döyürəm. Qapını açan ev sahibi məni görüb təəccübünü gizlədə bilmir. Salam verib, hal-əhval tutandan sonra gəlişimin səbəbini ona söyləyirəm. Bir az sükut yaranır… Sonra Gülüzar xala dərin bir ah ilə söhbətə başlayır: – Mən 1960-cı ildə qədim adı ilə desəm, İrəvan şəhərinin Uluxanlı, indiki adı ilə desəm, Zəngibasar rayonunda anadan olmuşam. İndi həmin rayonun adını ermənilər özününküləşdirib Masis qoyublar. Atam dəmiryolçu idi. Zəngibasarın dəmiryol vağzalının yanında yerləşən binada yaşayırdıq. Ailədə 2 bacım, 2 qardaşım var idi. Mən 8 yaşımda olanda atam vəfat etdi. Orada 10 illik Azərbaycan tam orta məktəbimiz vardı – Cəlil Məmmədquluzadə adına. Həmin məktəbdə təhsil almışam. Məktəbimizin qarşısında Cəlil Məmmədquluzadənin büstü də qoyulmuşdu. Rayonda böyük, qədim məscidimiz, pirlər də var idi. Bizim ən çox ziyarət etdiyimiz pir "Ağa Dədə" piri idi. Rayon böyük idi. Yuxarı Necili, Aşağı Necili, Mehmandar, Zəhmət, Təzəkənd, Rəncbər kəndlərinin, demək olar ki, əhalisi azərbaycanlılardan ibarət idi. Mən ailə həyatı qurduqdan sonra kənddəki sovxozda işləmişəm. Sonralar Zəngibasar Dəmiryol Stansiyasında işləməyə başladım. 1988-ci ilin may ayına kimi bizi nə incidən, nə də söz deyən var idi. Elə ki Sumqayıt hadisələri baş verdi, bu bəhanə ilə başladılar azərbaycanlıları sıxışdırmağa. Biz yerimizi-yurdumuzu qoyub gəlmək istəmirdik. Hər nə qədər dirənsək də alınmadı. Rayona tanklar yeridildi. Səhər durub rayonun oda verildiyini gördük. Artıq hər kəs canını götürüb qaçmaqda çarə gördü. Mənim uşaqlarım balaca idilər. Böyük qızım 5-ci sinifdə oxuyurdu, balaca qızımın isə hələ 5 yaşı tamam deyildi. Evimizdən çıxmaq istəmirdik. Ancaq dayım oğlunun ayağına yaba keçirdilər. Bunu gördükdən sonra əliyalın camaat burada qalmanın sonunun ölüm olacağını görüb, rayonu tərk etməyə məcbur oldu. Üz tutduq dəmiryol vağzalına. Orada bir gün vaqonda gizləndikdən sonra mən və uşaqlarım qardaşımın ailəsi ilə qatara minib Bakı şəhərinə getdik. Qalacaq yerimiz olmadığından uşaqları Mərdəkanda yerləşən rus təmayüllü internat məktəbinə qoyub, qardaşım Cəfərlə Naxçıvana gəlməli olduq. İkimiz də dəmiryolçu olduğumuza görə bizi Culfa Dəmiryol Stansiyasında işlə təmin etdilər. Sonralar evlə təmin olunduq. Mən yaşamaq üçün şəraitimi qurduqdan sonra Bakı şəhərinə gedib uşaqlarımı internat məktəbindən çıxardım və Bakı Şəhər İcra Hakimiyyətinə bacılarımın və qardaşımın yerini tapmaqda mənə kömək etmələri üçün müraciət etdim. Bir neçə gün Bakı şəhərində bacımgili axtarıb tapdım. Bacımgil Nəsimi rayonunda mənzillə təmin olunmuşdular. Öyrəndim ki, balaca qardaşım Mingəçevirdə evlə təmin olub. Sonra uşaqlarımla geri qayıtdım. Bizim üçün yeni həyat 1988-ci ilin dekabrından Culfa rayonunda başladı. Mənimlə bərabər gələn qardaşım Cəfər ermənilərin başımıza gətirdiyi müsibətləri qəbul edə bilmirdi. Yurd həsrəti onu bizdən aldı. Bütün bunlara ürəyi dözməyən qardaşım 1989-cu ildə vəfat etdi. Gülüstan kənd qəbiristanlığında onu dəfn etdik. Sonralar azğın ermənilərin etdiyi qətllər, soyqırımları haqqında eşidib bildikdə bizim böyük bir faciədən qurtulduğumuzu anladım. Artıq 35 ildir ki, mən bu rayonda yaşayıram. Yaxşı dost-tanışım, qonşularım var. İnsanın ən böyük təsəllisidir bunlar.



Gülüzar xaladan Zəngibasar üçün darıxmağını soruşuram. Deyir ki, insan doğulub boya-başa çatdığı yurdunu unuda, darıxmaya bilərmi? Əlbəttə ki, çox darıxıram. İndiyə kimi heç ümid etmirdim ki, bir gün Qərbi Azərbaycan adı çəkilər. Ancaq ölkə Prezidenti cənab İlham Əliyevin 2022-ci il 24 dekabr tarixdə Qərbi Azərbaycan İcmasının ziyalıları ilə görüşü, buradakı çıxışı mənim illərdir, yox olan ümidlərimi dirçəltdi. Əgər bir gün o torpaqlarımıza qayıtmaq imkanımız olsa, ilk olaraq atamın məzarını ziyarət etmək istəyirəm.

Gülüzar xalanın on illərdir, ovunmayan bu yurd həsrəti və qəlbində alovlanan ümid şöləsi mənə də dövlət başçımızın həmin görüşdəki tarixi nitqini xatırlatdı: ***"Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq, əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarixboyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır".***



Ümidlər tükənməzdir, Gülüzar xala. İki ildən artıqdır ki, 30 illik Qarabağ həsrətimizə son qoyduq. Müzəffər Ali Baş Komandan, şanlı Ordumuz sayəsində Böyük Zəfərə imza atdıq. Bu zəfəri yaşayan xalqın hər zaman sabaha ümidi var. Bu ümidi isə bizə ölkə Prezidenti cənab İlham Əliyev verərək öz nitqində inamla qeyd etdi: ***"Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".***

Ali Baş Komandanın qeyd etdiyi kimi, məcburi köçkünlərimizin öz torpaqlarına qayıtmaları ilə bağlı arzularımız necə reallığa çevrildisə, çox çəkmədən İrəvana, Göyçəyə, Zəngəzura qayıdış arzularımız da gerçək olacaq. Buna isə xalqın inamı sonsuzdur. Çünki bunu təmin edəcək qüdrətli liderimiz, müzəffər sərkərdəmiz və güclü ordumuz var.

*O gün uzaqda deyil.*

**Səriyyə SALAHOVA**

***Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla icra olunan dövlət gənclər və idman siyasətinin tərkib hissəsi kimi Azərbaycanın hər bir yerində, o cümlədən Naxçıvan Muxtar Respublikasında gənclərin sağlam həyat tərzinə cəlbi, onların vətənpərvər ruhda formalaşdırılması, müxtəlif sahələrdə inkişafı və uğurlu fəaliyyətinə zəmin yaradılması istiqamətində məqsədyönlü addımlar atılır.***

# Naxçıvan gəncləri yeni uğurları ilə etimadı doğruldur



Ötən ay ərzində muxtar respublikada bədən tərbiyəsi və idmanın inkişafı, gənc nəslin sağlam və vətənpərvər ruhda formalaşdırılması, onların cəmiyyətdəki aktivliyini artırmaq və asudə vaxtlarının səmərəli təşkili məqsədilə bir sıra tədbirlər həyata keçirilib, uğurlu fəaliyyəti ilə fərqlənən gənc nəsil nümayəndələri mükafatlandırılıblar. İdmançılarımız yeni nailiyyətlərə imza atıblar.

2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində, Naxçıvan Milli Dram Teatrında və rayonlarda tədbirlər keçirilib, "Naxçıvan" Sarayda isə mükafatlandırma mərasimi reallaşıb. Ötən il ərzində gənclərlə iş və idman sahəsində fərqlənən yeniyetmə və gənclər, eləcə də bu sahədə xidmətləri olan ictimaiyyət nümayəndələri təltif olunublar. Ağbulaq İstirahət Mərkəzində "Heydər Əliyev İli" ilə əlaqədar gənclərin "Qış məktəbi" layihəsinə start verilib. Ali təhsil müəssisələrinin tələbələri və könüllü gənclərin iştirakı ilə reallaşan üçgünlük düşərgədə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacının iştirakçılarla görüşü keçirilib, gənclərin asudə vaxtının səmərəli təşkili, şəxsi inkişafının sürətləndirilməsi, vətənpərvərlik hisslərinin gücləndirilməsi və onlara hər bir azərbaycanlıya örnək olan Heydər Əliyev irsinin aşılanması yönündə müxtəlif tədbirlər təşkil olunub.

Naxçıvan gənclərinin ölkə üzrə qrant müsabiqələrində qalib gəldiyi layihələri gerçəkləşib. Belə ki, Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatının sədri, Prezident mükafatçısı Əziz Qasımovun Naxçıvan tələbə-gənclər təşkilatlarının I regional konfransı və tələbə-gəncimiz Bağdagül Cəfərlinin "Debat çempionatı" layihələri reallaşıb. Bununla yanaşı, tələbə-gənclər təşkilatlarının işinin təkmilləşdirilməsi və onlar arasında şəbəkəli fəaliyyətin təmini məqsədilə Gənclər və İdman Nazirliyinin məsul əməkdaşları ilə təşkilat sədrləri və nümayəndələri arasında görüş keçirilib, bu sferada yeni fəaliyyət mexanizminin tətbiqi baxımından ilkin müzakirələr aparılıb və müvafiq qərarlar qəbul edilib. Bir qrup könüllü gəncin Naxçıvan şəhərində yerləşən Xatirə Muzeyinə, ali təhsil müəssisələrinin əcnəbi tələbələrinin Şahbuz rayonunda yerləşən turizm əhəmiyyətli məkanlara ekskursiyaları təşkil olunub. Bölgələrimizdə yaradıcılıq müsabiqələri, intellektual oyunlar, vətənpərvərlik motivli film nümayişləri və "Heydər Əliyev İli" ilə əlaqədar müxtəlif tədbirlər keçirilib.

Hesabat ayı Naxçıvan idmançıları və idman ictimaiyyəti nümayəndələri üçün uğurlarla yadda qalıb. Dövlətimizin idmançılara yüksək qayğısının növbəti təzahürü kimi qeyd edə bilərik ki, Prezident cənab İlham Əliyev 2022-ci ilin idman yekunlarına həsr olunan mərasimdə Naxçıvan boks məktəbinin yetirməsi Tayfur Əliyevi də mənzillə mükafatlandırıb. Gənclər və İdman Nazirliyinin kollegiya qərarı ilə Naxçıvan Güləş Federasiyasının sədri Faiq İsgəndərov "Azərbaycan Respublikasının Əməkdar məşqçisi" fəxri adına layiq görülüb. Qardaş ölkə Türkiyənin İstanbul şəhərində təkbətək döyüş idmanı növlərini əhatə edən "Altın Yumruq ödül gecəsi" mükafatlandırma mərasimində Naxçıvan Kikboksinq Federasiyasının sədri Xəyal Abdullayev "Kikboks onur ödülü" ilə, federasiyanın məşqçisi Etibar Qəribov isə "Spor elçisi ödülü" ilə mükafatlandırılıblar. Atletlərimizdən Əmrah Nağıyev 39-cu Qış Azərbaycan çempionatında 1500 və 3000 metr məsafələrə qaçış yarışlarında finişə birinci çataraq hər iki məsafə üzrə qızıl, Aysu Abbasova isə bir gümüş və bir bürünc medal qazanıb. Bununla yanaşı, idmançılarımız VII "Arpachay Open" beynəlxalq karate turnirində 4 qızıl, 2 gümüş, 6 bürünc, MMA, pankration və qreppling üzrə açıq Bakı birinciliyində 8 qızıl, 8 gümüş və 8 bürünc medal qazanıblar.

"Araz-Naxçıvan" PFK-nın heyəti Bakı şəhərində təlim-məşq toplanışı keçib, bir neçə yoldaşlıq görüşü və seminarda iştirak edib, Naxçıvanın bədii gimnastları isə məşqçi Humay Qafarovanın rəhbərliyi ilə Azərbaycan Gimnastika Federasiyasının regionları əhatə edən təlim-məşq toplanışına qatılıblar. Babək rayonunun Nehrəm qəsəbəsində özəl investisiya əsasında fəaliyyət göstərən idman zalında sərbəst güləş məşqlərinə start verilib. Kütləviliyə zəmin yaradılması, məşqlərin effektivliyi və keyfiyyətinin artırılması, o cümlədən idmanda sahibkarlıq fəaliyyətinin dəstəklənməsi məqsədilə bura Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən müasir güləş xalçası dəsti və məşqçi-müəllimlə təmin olunub. Ay ərzində muxtar respublikanın bölgələrində müxtəlif idman növləri üzrə rayon (şəhər) birincilikləri, paralimpiyaçılar arasında yarışlar, şəhidlərimizin xatirə turnirləri təşkil olunub, Ordubad rayonunda ilk dəfə olaraq ağırlıqqaldırma yarışı və bədii gimnastika üzrə nümunəvi çıxışlar reallaşıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonu, Düdəngə kənd sakini Hüseynov Ülfət Sultan oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Cəfərov Qurban Telman oğlunun adına olan kiçik çavuşun AD-0049771 nömrəli hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonunun Daylaqlı kənd sakini Tarverdiyev Rəfael Tofiq oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Güntac Şahməmmədli
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 141